

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 noyabr 2024-cü il №85 (2896) https://mod.gov.az Qiymәti 30 qәpik


## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**“general-polkovnik” ali hərbi rütbəsi**

general-leytenant Hikmət İzzət oğlu Mirzəyevə

**“general-mayor” ali hərbi rütbəsi**

polkovnik Ələkbər Məhəmməd oğlu Cahangirova

polkovnik Gündüz Əliş oğlu Əbdülova

polkovnik Azər Əlövsət oğlu Qasımova

**“ədliyyə general-mayoru” ali hərbi rütbəsi**

ədliyyə polkovniki Elçin Nəriman oğlu Əliyevə.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 noyabr 2024-cü il




## Prezident İlham Əliyev 8 Noyabr - Zəfər Günü münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 Noyabr - Zəfər Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.

AZƏRTAC fotonu təqdim edir.

## Prezident İlham Əliyev Şuşanın azad olunmasının ildönümü münasibətilə paylaşım edib



Prezident İlham Əliyev Şuşanın Ermənistan işğalından azad edilməsinin dördüncü ildönümü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda qeyd olunub: "Zəfər tariximiz - Şuşanın Ermənistan işğalından azad edilməsindən dörd il ötür".

## Birinci vitse-prezident Mehriban Əliyeva Zəfər Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Zəfər Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "08.11.2024. Zəfər Gününüz mübarək! Allah Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə rəhmət eləsin, onların ailələrinə güc və səbir versin. Uca Tanrı doğma Azərbaycanımızı daim qorusun!".

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir, parlaq Qələbəmizdir




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev noyabrın 8-də Bakıda Zəfər parkının açılışında iştirak ediblər.

Dövlətimizin başçısı burada Azərbaycanın üçrəngli Dövlət Bayrağını ucaldıb.

Sonra parkdakı Zəfər abidəsinin önünə əklil və gül dəstələri qoyulub.

Daha sonra dövlətimizin başçısı xalqa müraciət edib.

**Prezident İlham Əliyevin müraciəti**

- Əziz həmvətənlər.

Bu gün Azərbaycan Zəfər bayramını qeyd edir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm, Azərbaycan Silahlı Qüvvələrini təbrik edirəm.

Hər birimiz üçün əziz bir gündə Vətən uğrunda öz canlarından keçmiş qəhrəman şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Biz şəhidlərimizin qisasını, qanını döyüş meydanında aldıq. 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir, parlaq Qələbəmizdir. Biz həm Birinci Qarabağ müharibəsinin, həm İkinci Qarabağ müharibəsinin, eləcə də antiterror əməliyyatının şəhidlərinin qanını döyüş meydanında aldıq, öz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etdik.

Qırx dörd gün ərzində Azərbaycan Silahlı Qüvvələri ancaq və ancaq irəli gedirdi. Hər gün, hər saat irəli gedərək döyüş meydanında 300-dən çox şəhər və kəndimizi işğalçılardan azad etdik və düşməni kapitulyasiya aktının imzalanmasına məcbur etdik. Qırx dörd gün ərzində şəhərlərimizin, kəndlərimizin azad edilməsi Ordumuzun gücünü, hərbçilərimizin peşəkarlığını, fədakarlığını, xalqımızın əzmini bütün dünyaya nümayiş etdirmişdir. Torpaqlarımız 30 il ərzində işğal altında olsa da, Azərbaycan xalqı və Azərbaycan rəhbərliyi bu işğalla heç vaxt barışmırdı. Baxmayaraq ki, Ermənistanın arxasında duran bir çox dövlətlər bizim bu işğalla barışmağımız üçün müxtəlif üsullardan istifadə edirdilər.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan Respublikasının müdafiə nazirinin 8 Noyabr - Zəfər Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Sizi hərb tariximizin ən şanlı səhifəsi sayılan 8 Noyabr - Zəfər Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, Azərbaycanın müdafiə qüdrətinin daha da artırılması naminə müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram. Ölkəmizin suverenliyinin, müdafiə və təhlükəsizliyinin təminatçısı olan Azərbaycan Ordusunda vahid komandanlığın yaradılması, ordumuzun nizami ordu kimi formalaşması və hərbi quruculuq məsələlərinin prioritet məsələ kimi önə çəkilməsi Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə atdığı cəsarətli addımlarının nəticəsidir.

Ümummilli Liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızın müdafiə qüdrətinin artırılması istiqamətində qazanılan nailiyyətlər, uğurlu döyüş əməliyyatları şəxsi heyətin qələbə əzmini daha da möhkəmləndirdi və 8 Noyabr - Zəfər Günü Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldı.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu işğal altında qalmış tarixi torpaqlarımızı azad etdi. Ölkə başçısının müdrik və uzaqgörən siyasəti, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi tam təmin edildi.

Bu gün rəşadətli Ordumuz Azərbaycan Respublikasının Dövlət Bayrağının dalğalandığı ərazilərdə bərpa-quruculuq işlərinin yüksək səviyyədə həyata keçirilməsinə, o cümlədən Böyük Qayıdışa layiqli töhfə verir.

Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə daim sadiq qalaraq döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, xidmətinizdə yeni uğurlar əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıracaqsınız.

Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bötövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsini hər zaman olduğu kimi, 8 Noyabr - Zəfər Günü ərəfəsində də dərin hörmət və ehtiramla yad edirik. Şəhidlərimizin ailə üzvləri və sağlamlığını itirən döyüşçülərimiz, müharibə veteranları daima dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır. Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində onların sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğılarının həlli istiqamətində mühüm addımlar atılır. Bu istiqamətdə həyata keçirilən tədbirlər bu gün də uğurla davam etdirilir. Şəhid hərbi qulluqçularımızın ailə üzvləri, Vətən uğrunda sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Bir daha hər birinizi 8 Noyabr - Zəfər Günü münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, Vətənə, müstəqil Azərbaycan dövlətinə şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram.

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının müdafiə naziri**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir, parlaq Qələbəmizdir





(Əvvəli 1-ci səhifədə)

Azərbaycan xalqı yaxşı xatırlayır, böyük dövlətlər, bu məsələni - Ermənistan-Azərbaycan münaqişəsini guya həll etməyə çalışan vasitəçilər dəfələrlə bəyan edirdilər ki, bu münaqişənin hərbi həlli yoxdur. Nəyi demək istəyirdilər Azərbaycan xalqına? Onu demək istəyirdilər ki, biz bu işğalla barışaq. Çünki onların planlarında məhz bu idi. Onların planlarında məsələni həll etmək yox, işğala son qoymaq yox, Azərbaycan torpaqlarını erməni işğalının altında əbədi saxlamaq idi. Biz bunu görürdük, bilirdik. İllər keçdikcə, hər bir danışıqlar dövrü uğursuzluqla başa çatdıqca həm Azərbaycan rəhbərliyi, həm Azərbaycan xalqı bunu əyani şəkildə görürdü. Biz isə bu vəziyyətlə barışa bilməzdik. Hələ 2003-cü ildə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçiləndə mən bəyan etmişdim ki, nəyin bahasına olursa-olsun, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi danışıqlar mövzusu olmayacaq və həyat bunu göstərdi.

Biz hazırlaşırdıq, güclü ordu yaradırdıq, iqtisadi inkişafı təmin edirdik, çünki Ermənistandan fərqli olaraq heç bir kənar yerdən yardım almırdıq, ancaq öz gücümüzə güvənirdik. İqtisadi inkişaf, siyasi çəkimizin böyük olması, sözümüzü beynəlxalq tribunalarda qətiyyətlə deməyimiz, xalq-iqtidar birliyi, gənc nəslin yetişdirilməsi, cəmiyyətdə vətənpərvərlik ruhunun bərqərar olması - bütün bu amillər bizi Qələbəyə doğru aparırdı. Bütün bu amillərin cəmləşməsi bu Qələbəni mümkün etmişdir. Cəmi 44 gün ərzində düşmənin 6-7 müdafiə xəttini öz sinəsini qabağa verərək, güllə altına qoyaraq yaran bizim qəhrəman övladlarımız, hərbçilərimiz bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu, gücünü, iradəsini bir daha göstərmişdir. Biz düşməni kapitulyasiya aktının imzalanmasına məcbur etdik. Həmin düşmən hələ 2019-cu ildə Xankəndidə "Qarabağ Ermənistandır və nöqtə" demişdi. Biz onu məcbur etdik ki, bu gün "Qarabağ Azərbaycandır" deyir və bundan sonra da deyəcək, öz xoşu ilə yox.

İndi Ermənistanın bəzi Qərb havadarları Ermənistandan "sülh göyərçini" düzəltmək istəyirlər. Sanki bu 30 illik işğal olmayıb, dağıntılar olmayıb, vəhşilik olmayıb, Xocalı soyqırımı olmayıb. Məscidlərimizin, qəbirlərimizin dağıdılması, bütün Qarabağın, Şərqi Zəngəzurun viran edilməsi sanki olmayıb. Yəni, bunu unutdurmaq, dünya ictimaiyyətinə unutdurmaq istəyirlər. Amma biz heç vaxt bunu unutmayacağıq və Azərbaycan xalqı heç vaxt bunu unutmamalıdır, bizdən sonra gələn nəsillər bu tarixi bilməlidirlər və heç vaxt unutmamalıdırlar. Necə ki, biz Qarabağı 30 il ərzində unutmamışdıq, necə ki, 30 il ərzində xalqımız bir nöqtəyə vuraraq bu Qələbəni yaxınlaşdırırdı. Bundan sonra da bu tarixi yaddaş heç vaxt yadımızdan çıxmamalıdır.

Müharibə dövründə Ermənistan hərbi cinayətlər törətmişdir, dinc şəhərlərimizi bombalayırdı, "İsgəndər M", "Toçka U", "Elbrus" və digər dağıdıcı silahlarla hər gün şəhər və kəndlərimiz artilleriya atəşi altında idi. Amma bu, Azərbaycan xalqının iradəsinə bir zərrə təsir etmədi. Əksinə, dağıntılardan öz yaxınlarının meyitlərini çıxaran bizim soydaşlarımız bir amalla yaşayırdı ki, təki müharibə dayanmasın. Biz müharibəni vaxtında dayandırdıq və mən müharibənin ilk günündə demişdim ki, düşmən torpaqlarımızdan çıxmaq cədvəlini bizə verməlidir - nə vaxt hansı bölgədən çıxır, ondan sonra biz müharibəni dayandıracağıq. Ancaq bəzi insanlar, - bu, təbiidir, - hesab edirdilər ki, Azərbaycan rəhbərliyi bu beynəlxalq ermənipərəst qüvvələrin təzyiqinə davam gətirə bilməyə bilər və xalqımız narahat idi ki, işimiz yarımçıq qalacaq. Bu, təbiidir, çünki Azərbaycan o qədər də böyük dövlət deyil. Minsk qrupunun bütün həmsədrləri 30 il ərzində Ermənistanın arxasında dayanmışdı, biri pulsuz silah verirdi, biri pul verirdi, biri həm silah, həm pul verirdi, siyasi dəstək verirdi, bir məqsədlə ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlasınlar. Ona görə, təbii olaraq Azərbaycan vətəndaşlarının bəziləri narahat idi ki, müharibə yarımçıq qalacaq, biz öz istədiyimizə nail ola bilməyəcəyik, bizi kimsə dayandıracaq. Amma mən dedim, yox, heç kim bizi dayandıra bilməz, öldü var, döndü yoxdur. Sona qədər vuruşacağıq, ədaləti bərpa edəcəyik, beynəlxalq hüququ bərpa edəcəyik və Ermənistana onun yerini göstərəcəyik.

2020-ci il noyabrın 8-də tarixi Şuşa əməliyyatı demək olar ki, düşmənin belini qırmışdır. Ondan sonra cəmi bir gün keçdi və noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu və biz müharibəni dayandırdıq.

Bugünkü reallıq, bugünkü uğurlarımız onu göstərir ki, o, yeganə düzgün addım idi. Biz bir güllə atılmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmişik. Ondan sonra aparılan məqsədyönlü və düşünülmüş siyasət, qətiyyətli addımlar nəticəsində biz həm siyasi, həm strateji və hərbi-strateji mövqelərimizi böyük dərəcədə gücləndirdik, vacib olan yüksəkliklərə nəzarətimiz təmin olunandan sonra bir qrup separatçının, Qarabağda və Ermənistanda onların arxasında duranların aqibəti bəlli idi - ya Azərbaycan qanunlarına tabe olacaqlar, ya təslim olacaqlar, ya da məhv olacaqlar. Biz onlara seçim verdik və yenə də düzgün qərar qəbul etmədilər. Yenə də hesab edirdilər ki, kimsə onlara kömək edəcək, kimsə Azərbaycanı öz haqq işindən çəkindirəcək. 2023-cü ilin sentyabrında keçirilmiş cəmi bir neçə saat davam edən antiterror əməliyyatı onlara növbəti bir dərs olmuşdur və bununla da separatçılığın kökü kəsildi, kitabı bağlandı. İndi Qarabağ torpağında separatçıların izi-tozu da qalmayıb.

Bütün bu şanlı tarixi Azərbaycan xalqı öz qanı ilə, öz gücü ilə yazmışdır. Biz həm Vətən müharibəsi dövründə, həm



ondan sonrakı dövr ərzində, antiterror əməliyyatı zamanı və ondan sonra düşməni məcbur etdik ki, Qazax rayonunun 1990-cı illərin əvvəllərində işğal etdiyi 4 kəndini bizə qaytarsın, bu, öz xoşu ilə olmayıb. Bəli, heç bir güc tətbiq edilməmişdir, ancaq ona ehtiyac da qalmadı. İkinci Qarabağ müharibəsinin, antiterror əməliyyatının nəticələri hesab edirəm ki, Ermənistanın bu günə qədər düzgün addımlar atması üçün kifayətdir. Ancaq bir məsələ var, onu da biz unutmamalıyıq ki, bu gün bu vəziyyətlə barışmaq istəməyən anti-Azərbaycan qüvvələr, bəzi Qərb paytaxtlarında oturan islamofoblar, azərbaycanofoblar Ermənistanı yeni müharibəyə təhrik edirlər. Bu, Ermənistan dövləti üçün tam faciə ola bilər və mən dəfələrlə həm rəsmi çıxışlarımda, həm təmaslar əsnasında Ermənistan tərəfinə izah etməyə çalışırdım ki, bundan uzaq dursunlar, o fitnəyə getməsinlər. Öz maraqlarını təmin etmək üçün, onların dostları sayılan bəzi Qərb dövlətləri onları qurban verməyə hazırdırlar ki, yenə də Cənubi Qafqazda ara qarışsın, yenə də qan tökülsün, yenə də onlar bulanıq suda balıq tuta bilsinlər. Hələ ki, gec deyil, ona görə Ermənistan bu silahlandırma siyasətindən əl çəkməlidir, buna son qoyulmalıdır, mən dəfələrlə bunu demişəm və onlar bilirlər ki, mənim sözümə diqqət yetirmək lazımdır. Hələ ki, gec deyil, bundan əl çəksinlər, onlar heç vaxt bizimlə rəqabət aparmaq gücündə olmayacaqlar. Biz müharibə istəmirik. Biz istədiyimizə nail olduq, ərazi bütövlüyümüzü təmin etdik, dövlət suverenliyimizi təmin etdik. Bütün sərhədlərdə ərazi bütövlüyü təmin edilir və keçmiş məcburi köçkünlər, qaçqınlar öz dədə-baba torpaqlarına qayıdırlar.

Biz indi quruculuq işləri ilə məşğuluq. Bizim üçün əsas məsələ budur. Amma görəndə ki, Ermənistan və onun arxasında duran, Azərbaycana düşmən gözü ilə baxan, bizə soyuq müharibə elan edən qüvvələr Ermənistanı silahlandırır, Ermənistan silahlanır, biz adekvat addım atmağa məcburuq. Otuz illik işğal tarixi bizim yaddaşımızdan silinmir və bayaq dediyim kimi, heç vaxt silinməməlidir. Biz hər an yeni təxribata hazır olmalıyıq və hazırıq. Azərbaycan Silahlı Qüvvələri hər an təxribatı dəf etmək üçün hazır vəziyyətdədir. Əgər kimsə yenidən bizim gücümüzü sınamaq istəyirsə, yenidən məğlub olacaq, yenidən biabır olacaq. Çünki 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı, bizim Zəfərimiz təkcə Ermənistanın məğlubiyyəti deyil, onların arxasında duranların acı və alçaldıcı məğlubiyyətidir. Onu bizə bağışlaya bilmirlər. Ona görə Qərbdə Azərbaycana qarşı geniş, çirkin kampaniya aparılır. Ölkəmizi gözdən salmaq, olmazın iftiralarını uydurmaq, öz əlinin altındakı saxta xəbər mənbəyi olan media resurslarından, qeyri-hökumət təşkilatlarından istifadə edərək Azərbaycanı qaralamaq, şantaj etmək, ləkələmək, təhqir etmək, bax, o özünü alçaldılmış sayan Qərb dövlətlərinin və uğursuz Qərb liderlərinin məqsədidir və onların çirkin üsuludur. Azərbaycan xalqı bunu bilir və Ermənistan xalqı da bunu bilməlidir, kimdir onların əsas düşməni? Biz deyilik. Biz onlara heç bir pislik etməmişdik. Biz onlara çörək vermişdik. Onlar bizim torpağımızda yaşayıb, özləri üçün həyat qurmuşdular. Baxmayaraq ki, XIX əsrdə ancaq onlar buraya göndərilmişdi. Biz nə pislik etmişdik? Onlar bizə qarşı soyqırımı törətdilər - Xocalı soyqırımı. Otuz il ərzində bütün şəhər və kəndlərimizi dağıtdılar, məscidlərimizi təhqir etdilər, sökdülər. Bütün o bölgəni minalayıblar. Üç yüzdən çox insan artıq minaların qurbanı olub Azərbaycanda. Ona görə biz onların düşməni deyilik, onların düşməni onların arxasında duran və ondan sonra onların arxasından dovşan kimi, siçan kimi qaçan siyasətçilərdir. Mənim sözlərimə onlar yaxşı qulaq assınlar.

Biz isə bundan sonra da güclənəcəyik. Heç bir təzyiq, heç bir hədə-qorxu bizə bu günə qədər təsir etməyib. Bundan sonra da təsir etməyəcək. Xalq-iqtidar birliyi gücümüzün əsas mənbəyidir. İnkişafda olan Azərbaycan qürur mənbəyimizdir, şanlı Qələbəmiz isə bizim tarixi nailiyyətimizdir, tarixi zəfərimizdir.

Bu gün Zəfər Günündə şəhərimizin ən gözəl yerlərindən birində Zəfər parkı açılıb. Gözəl Zəfər tağı, Zəfər abidəsi, ərazisi 10 hektara yaxın olan gözəl park, onun aşağısında Zəfər muzeyi artıq inşa edilib, onun tərtibatı gedir. Gələcəkdə Zəfər muzeyi də olacaq. Bu gözəl yerdə şəhərimizin, yenə də deyirəm, ən gözəl yerlərindən birində bu gün bizim parlaq Zəfərimizi əks etdirən yeni simvolumuz artıq yaradılıb. Şəhərə gedən iki yolun kəsişməsində Zəfər tağı yerləşir. Həm müasir üslubda inşa edilib, həm çox əzəmətlidir. Hündürlüyü də 44 metrdir, sütunlarının da sayı 44-dür. Bu parkda və indi tərtib olunan muzeydə bir çox önəmli rəmzlər var. Bu rəmzlər bizimlə əbədi olacaq. Bu Qələbə bizimlə əbədi olacaq. Azərbaycan xalqı bundan sonra qalib xalq, Azərbaycan dövləti müzəffər dövlət kimi yaşayacaqdır.

Eşq olsun Azərbaycan xalqına, eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə, Qarabağ Azərbaycandır!

**AZƏRTAC-ın materialları əsasında**

# Prezident İlham Əliyev Bakıda Dövlət Bayrağı Meydanında olub, Azərbaycanın üçrəngli Bayrağını ucaldıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev noyabrın 8-də Bakıda Dövlət Bayrağı Meydanında olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı burada Azərbaycanın üçrəngli Bayrağını ucaldıb.

Sonra Prezident İlham Əliyev meydanda və Dövlət Bayrağı Muzeyində yaradılan şəraitlə tanış olub.

Qeyd edək ki, Dövlət Bayrağı Muzeyi Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva tərəfindən 2010-cu il noyabrın 9-da açılıb. Muzey fəaliyyəti dövründə Azərbaycanın Dövlət bayrağı ilə yanaşı, ölkəmizdə müxtəlif dövrlərdə mövcud olan xanlıqların, dövlətlərin bayraqları əyani nümayiş etdirilib və gələn qonaqlara ətraflı məlumatlar verilib. Bundan başqa, muzeydə Azərbaycanın qədim və zəngin dövlətçilik tarixini əks etdirən 400 eksponat sərgilənib. Muzeyə gələn qonaqlara hər bir tarixi nümunə haqqında təfsilatlı məlumatlar verilib.

2017-ci ildə Dövlət Bayrağı Meydanında aparılan yenidənqurma və bərpa işləri ilə əlaqədar Dövlət Bayrağı Muzeyi də təmirə bağlanıb. Təmir-bərpa işlərinin aparıldığı illər ərzində muzeyin əməkdaşları eksponatların qorunması, saxlanılması, daha da zənginləşdirilməsi istiqamətində işlər görüb, eksponat sayını 431-ə çatdırıblar.

Təmir-bərpa işlərindən sonra yeni görkəmdə və tərtibatda fəaliyyətə başlayan Dövlət Bayrağı Muzeyində 44 günlük Vətən müharibəsinə həsr olunan "Zəfər qalereyası" adlı ekspozisiya nümayiş olunur. Qalereyada Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən işğaldan azad edilmiş ərazilərdə Dövlət bayrağının ucaldılması və Xankəndi şəhərində Vətən müharibəsindəki qələbənin üçüncü ildönümü ilə bağlı hərbi paradın fotoları sərgilənir.

Muzey altı sərgi salonundan ibarətdir.

A Sərgi salonunda ölkəmizin qədim və orta əsrlər dövrünə aid bayraqlar, bayraq ucluqları, hakimiyyət rəmzləri, sikkələr, silahlar və XIX əsr Azərbaycan şəhərlərinin gerbləri nümayiş olunur.

B Sərgi salonu Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR dövrünü əhatə edir. Burada Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində 1918-ci il dekabrın 7-də asılan Dövlət bayrağı, həmin dövrə aid fotoşəkillər, pul əskinazları, poçt markaları, eləcə də keçmiş Azərbaycan SSR-in bayraqları, gerbləri, müxtəlif illərdə qəbul olunan konstitusiyaları, pul əskinazları və poçt markaları təqdim edilir.

C Sərgi salonundakı eksponatlar isə müstəqillik dövrünü əhatə edir. Burada Ümummilli Lider Heydər Əliyevə həsr edilən xatirə medalları və poçt markaları, Azərbaycan Prezidentinin ştandartı, dövlətimizin orden və medalları, Azərbaycan Konstitusiyası, eləcə də Vətən müharibəsinə həsr edilən orden və medallar, dünyanın ən hündür zirvələrinə sancılmış Dövlət bayrağı nümayiş etdirilir. Salonda Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında" 2007-ci il 17 noyabr tarixli və "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" 2009-cu il 17 noyabr tarixli sərəncamlar, Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 17 noyabr tarixli Qərarından ibarət stend yerləşdirilib.





Azərbaycan Silahlı Qüvvələrinin bayraqları, medalları, emblem və şevronları isə muzeyin D salonunda sərgilənir.

E və F salonlarında Azərbaycanın hərbi qulluqçularının mərasim geyim formaları nümayiş olunur.

Bundan əlavə, Dövlət Bayrağı Muzeyindəki monitorlarda ölkəmizin qədim və orta əsrlər, Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR dövrünə, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki xidmətlərinə, Prezident İlham Əliyevin ordu quruculuğuna və Ali Baş Komandanlığı ilə Vətən müharibəsindəki tarixi qələbəyə həsr edilən videolar nümayiş olunur.

*9 Noyabr - Dövlət Bayrağı Günü*

# Bayrağımız - milli varlığımız, qürur mənbəyimiz



Elə bir Vətənini sevən insan tapılmaz ki, o mənsub olduğu dövlətin bayrağını görüb qəlbində qürur hissi keçirməsin. Hər bir azərbaycanlının da qürur yeridir, müstəqil dövlətimizin rəmzi olan üçrəngli bayrağımız.

Bayraq ucalıqdır, milli heysiyyatdır, vətəndaşlıq qüṛurudur. Bayraq millət, dövlət, milli mənlik deməkdir. Azərbaycan Respublikasının Konstitusiya Qanununda da deyildiyi kimi, Azərbaycan Respublikasının Dövlət Bayrağı Azərbaycan Respublikasının dövlət rəmzidir. 1918-ci il mayın 28-də Azərbaycan öz müstəqilliyini elan etdi və bununla da Şərqdə ilk demokratik dövlətin əsası qoyuldu. Bu uzun sürən bir mübarizənin məntiqi sonluğu - əsl qələbə idi. Azərbaycan Xalq Cümhuriyyəti qısa müddətdə demokratik islahatlara başladı. Azərbaycanın üçrəngli bayrağı, gerbi, dövlət himni qəbul olundu. Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında ilk hökumət qərarı 1918-ci il iyunun 21-də verilib. Həmin qərara əsasən, Azərbaycan bayrağı qırmızı materialdan, üzərində ağ aypara və qırmızı fonda ağ səkkizguşəli ulduzun təsviri verilmiş bayraq kimi hazırlanmalı idi. Qırmızı rəng qanlar bahasına alınmış Azadlığın, Hürriyyətin anlamı idi. Bu qərar qəbul edilərkən Azərbaycan Xalq Cümhuriyyəti Gəncə şəhərində yerləşirdi. Cümhuriyyət Bakıda fəaliyyətə başlayandan az sonra isə hökumətin bayraq haqqında ikinci qərarı qəbul edildi. 9 noyabr 1918-ci il tarixli "Milli bayraq haqqında Azərbaycan hökuməti qərarları" qovluğunda Nazirlər Şurası sədrinin milli bayraq haqqında məruzəsi və qəbul olunmuş qərar yer alıb: "Qərara alındı - yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizbucaq ulduzdan ibarət olan bayraq - milli bayraq hesab edilsin".

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra üçrəngli bayrağımız da endirildi. Bir də 70 ildən sonra Azərbaycanın üçrəngli bayrağı milli şüurun oyanışı ilə yenidən Azərbaycan xalqının milli müstəqilliyinin və iradəsinin ifadəsi kimi dalğalanmağa başladı. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Soveti Dövlət Bayrağı haqqında qanun qəbul edərkən, üçrəngli bayrağa da Azərbaycan Respublikasının Dövlət Bayrağı status verdi. Həmin il oktyabrın 18-də dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edərək, onun dövlət rəmzlərini, o cümlədən Dövlət Bayrağını da qəbul etdi.

Ulu Öndərin ölkəmizin müasir inkişafı ilə bağlı irəli sürdüyü prinsiplər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni dövrün reallıqlarına uyğun şəkildə yüksək dinamizmlə yerinə yetirilir. Azərbaycançılıq məfkurəsinin ardıcıl siyasi xətt kimi qorunmasına da xüsusi həssaslıqla yanaşır. Bu məfkurəni müasir şəraitdə daha da inkişaf etdirir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı meydanının yaradılması, 2009-cu il noyabrın 17-də isə Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında tarixi sərəncamlar imzaladı. Xalqımız hər il noyabrın 9-da Dövlət Bayrağı Gününü təntənəli qeyd edir. 2007-ci il dekabrın 30-da paytaxtın Bayıl qəsəbəsində dənizdən bir qədər aralıdakı təpəlikdə dövlətimizin başçısı cənab İlham Əliyevin iştirakı ilə Dövlət Bayrağı Meydanının təməli qoyuldu.

Vaxtilə Azərbaycan Prezidenti cənab İlham Əliyevin Dövlət Bayrağı Meydanının açılışında söylədiyi nitq ölkəmizin uğurlu inkişafını özündə əks etdirirdi. Belə bir nadir bayraq meydanının yaradılmasını sözün tam mənasında, bizim milli qürurumuz, Azərbaycanın hərtərəfli tərəqqisinin sübutu, təsdiqi kimi dəyərləndirən dövlət başçısı vurğulayırdı: "Dövlət Bayrağı Meydanı ölkəmizin mədəniyyət və siyasi mərkəzinə çevriləcək, bura baş çəkən hər kəs Azərbaycanın nəyə qadir olduğunun dərk edəcəkdir".

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsi Azərbaycan Ordusunun düşmən üzərində parlaq qələbəsiylə başa çatdı. 30 ilə yaxın müddətdə Ermənistan silahlı qüvvələrinin işğalında qalmış tarixi torpaqlarımız azad olundu. Müzəffər Ali Baş Komandan Azərbaycanın Dövlət Bayrağını düşmən işğalından azad edilmiş şəhər və rayonlarında ucaltdı. Bu gün Dövlət Bayrağımız işğaldan azad olunmuş bütün ərazilərimizdə qürurla, əzəmətlə dalğalanır.

*Bayraqları bayraq edən*
*üstündəki qandır,*
*Torpaq, uğrunda ölən varsa,*
*Vətəndir!*

Yüksəklərdə dalğalanan bayrağımız hər birimizə qürur, müstəqillik və azadlığın dərin hislərini yaşadır. Müstəqilliyimizin, milli varlığımız və dövlətçiliyimizin rəmzi olan bayrağımız uğrunda canlarını qurban verən, azadlıq, istiqlaliyyət, müstəqillik yolunda fədakarlıq nümayiş etdirən şəhidlərimizin şəhadəti, əməli, niyyəti bizi bu müqəddəs bayraq altında birliyə, həmrəyliyə, Vətənimizin müdafiəsində əzmlə dayanmağa və onu yadelli işğalçılardan qorumağa səsləyir.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana səfəri



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak etmək üçün Qırğız Respublikasına səfər edib.

Bişkek şəhərinin "Manas 2" Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi Qırğızıstan Nazirlər Kabinetinin sədri - Prezident Administrasiyasının rəhbəri Akılbek Japarov və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Noyabrın 5-də Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Çingiz Aytmatov" ordeni təqdim edilib.

Dövlətimizin başçısı görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun ev-muzeyinə gəlib.

Prezident İlham Əliyev əvvəlcə ev-muzeyi ilə tanış olub.

Məlumat verilib ki, muzey Bişkek yaxınlığındakı "Ala-Arça" dövlət iqamətgahında - 1986-cı ildən yazıçının ömrünün son 20 ilini yaşadığı evdə yerləşir. Qırğız xalqının böyük oğlunun vəfatından sonra həyat yoldaşı Mariya Aytmatova və oğlu Eldar ailəsi ilə burada yaşayıblar.

Ev-muzeyi Çingiz Aytmatovun həyat yoldaşı Mariya Urmatovna, övladları Eldar və Şirinin təşəbbüsü ilə 2014-cü il dekabrın 12-də açılıb.

Çingiz Aytmatovun kiçik oğlu Eldar yazıçının hələ sağlığında evdə hökm sürmüş bütün ab-havanı və şəraiti ən xırda detala qədər qoruyub saxlamağa çalışıb. Ev-muzeyində yazıçının şəxsi əşyaları, əlyazmaları və çoxsaylı mükafatları qorunub saxlanılır. İkinci mərtəbədə onun kabineti, yataq otağı və kitabxana yerləşir.

Evin ikinci hissəsində Eldar Aytmatov və ailəsi yaşayır. Mədəni-maarif fəaliyyəti ilə məşğul olan Çingiz Aytmatov Beynəlxalq Fondu da burada yerləşir. Fond 2000-ci ildə yazıçının özü tərəfindən təsis edilib, indi onun övladları tərəfindən idarə olunur.

Dövlətimizin başçısı ev-muzeyinin xatirə kitabına ürək sözlərini yazıb.

Qeyd edək ki, dünyaşöhrətli yazıçının zəngin bədii irsinə Azərbaycanda da hər zaman böyük maraq olub. Ulu Öndər Heydər Əliyev Çingiz Aytmatovu "Türk dünyasının fəxri" adlandırıb. Prezident İlham Əliyev 2008-ci ildə bir nömrəli "Dostluq" ordenini Çingiz Aytmatova təqdim edib. Azərbaycan və Qırğızıstan prezidentlərinin iştirakı ilə bu il aprelin 24-də Bakı şəhərində Çingiz Aytmatovun abidəsi açılıb.

Sonra Prezident İlham Əliyevə "Çingiz Aytmatov" ordeninin təqdim edilməsi mərasimi olub.

Çingiz Aytmatov Fondunun prezidenti **Eldar Aytmatov** çıxış edərək deyib:

- Hörmətli cənab Prezident, hörmətli qonaqlar.

Bu gün mən "Çingiz Aytmatov" ordenini Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə təqdim etmək şərəfinə nail oluram. Bu mükafat dərin hörmətin və yüksək nüfuzun rəmzidir. Bu, humanist dəyərlərin möhkəmləndirilməsinə, mədəni dialoqun dəstəklənməsinə və böyük yazıçımızın yaradıcı irsinin qorunub saxlanmasına Sizin verdiyiniz müstəsna töhfəyə görə minnətdarlıq əlamətidir.

Çingiz Aytmatov yalnız yazıçı deyil, həm də xalqlar arasında sülh, qarşılıqlı anlaşma və birlik ideyalarını təbliğ edən əsl körpü olub. Cənab Prezident, bu gün biz bu prinsiplərin Sizin fəaliyyətinizdə necə təcəssüm etdiyini görürük. Sizin rəhbərliyinizlə Azərbaycan mədəniyyətlərarası mübadilənin və əməkdaşlığın təşəbbüskarı kimi çıxış edir, digər ölkələrlə dinc və yaradıcı münasibətləri təşviq edir.

İcazə verin, xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsində və Çingiz Torekuloviçin həyatını həsr etdiyi dəyər-



lərin təbliğində yorulmaz səylərinizə görə Çingiz Aytmatov Beynəlxalq Fondu adından Sizə dərin təşəkkürümü bildirim. İnanırıq ki, Sizin səyləriniz sayəsində Aytmatovun adı bundan sonra da xalqları birləşdirəcək, mədəni tərəqqi və humanizm rəmzi olacaqdır.

Dərin hörmət və qürur hissi ilə Sizə müasir dünyada və ümumi mədəni irsimizin qorunub saxlanmasında oynadığınız rola verilən yüksək qiymətin əlaməti olan "Çingiz Aytmatov" ordenini təqdim edirəm. Sağ olun.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Eldar Aytmatov**: İcazənizlə, ordeni təqdim edim.

Prezident **İlham Əliyev**: Bəli, əlbəttə.

Dövlətimizin başçısına "Çingiz Aytmatov" ordeni təqdim edilib.

**Eldar Aytmatov**: Qeyd etmək istəyirəm ki, bu bir nömrəli orden Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə təqdim olunur və həmçinin ilk dəfə Azərbaycanın bir nömrəli "Dostluq" ordeni Azərbaycan Prezidenti tərəfindən Çingiz Aytmatova təqdim edilib. Sağ olun.

Prezident **İlham Əliyev** çıxış edərək deyib:

- Sağ olun. Bu yüksək mükafata görə çox sağ olun. Fəaliyyətimə verilən bu qiymətə görə Çingiz Aytmatov Fonduna, həmçinin onun ailə üzvlərinə və yaxınlarına minnətdarlığımı bildirmək istəyirəm. Həm də bu ordeni onun yaşadığı, işlədiyi, yazıb-yaratdığı, ruhunun indi də dolaşdığı evdə almaq mənim üçün böyük şərəfdir. Mən buraya gələrkən, təbii ki,



Çingiz Torekuloviçin evinin necə olması barədə fikirləşirdim və məhz orada rahat, isti, yaxşı, yaxınlarının, əzizlərinin əhatəsində olduğu, yaşadığı, işlədiyi və böyük sənət yaratdığı evi gördüm. Onun yaradıcılığı bütün dünyaya məxsusdur. Qeyd etdiyiniz kimi, onun kitabları 185 dilə, demək olar ki, bütün dillərə tərcümə olunub. Bu gün sizdən öyrəndim ki, onun kitablarının yenidən, xüsusən, yeni tərcümədə nəşrinə tələbatın olması onu göstərir ki, Çingiz Aytmatovun həyata, insanlara, təbiətə, öz xalqına münasibətdə sözünə, fikirlərinə ehtiyac var. Sözsüz ki, onun yaradıcılığı bütün mümkün sədləri ötüb keçib və əbədi olaraq oxucuları sevindirəcək, düşünməyə, yəqin ki, bir çox məsələləri yenidən başa düşməyə sövq



edəcək. Çünki onun yaradıcılığını çox sevən və bir çox əsərlərini oxuyan insan kimi deyə bilərəm ki, məhz onlar səni düşünməyə, hətta cəmiyyətə, dünyaya, təbiətə, öz fəaliyyətinə yenidən nəzər salmağa vadar edir. Atam Heydər Əliyevin dediyi kimi, Çingiz Aytmatov təkcə qırğız xalqının deyil, həm də bütün Türk dünyasının fəxridir. Artıq dediyim kimi, o, dünyaşöhrətli yazıçı, ictimai xadim idi və onun əsərləri müxtəlif mədəniyyətlərə məxsus, müxtəlif qitələrdən olan insanlar tərəfindən başa düşülürdü. Amma, eyni zamanda, onun əsərlərini oxuduqda görürsən ki, Çingiz Aytmatov məhz öz ölkəsinin, öz xalqının problemlərinə dərindən nüfuz edirdi, Qırğızıstanı necə tanıyırdı, öz xalqını necə sevirdi və öz xalqının nümayəndələrini təsvir edirdi. Yəni, o, sırf milli yazıçı idi, eyni zamanda, bütün dünya tərəfindən başa düşülürdü. Zənnimcə, onun mütəfəkkir kimi nadirliyinin sirri də bundadır.

Çingiz Aytmatova Azərbaycanda olan münasibətə gəldikdə, zənnimcə, bu barədə danışmağıma ehtiyac yoxdur. Onu bir insan kimi sevirdilər, onun çoxlu dostu var idi, bir sıra fotoşəkillər onun Azərbaycanın mədəniyyət xadimləri ilə görüşlərini əks etdirir. Həmçinin Heydər Əliyev və Çingiz Aytmatov bir-birinə böyük hörmətlə yanaşırdılar, onların çoxlu görüşləri olmuşdur və mənim atamdan gətirdiyim sitat məhz onun Çingiz Torekuloviçə bəslədiyi hisslərin təzahürüdür.

Bizim görüşümüzü xatırlayıram, yeri gəlmişkən, 2008-ci ildə görüşümüzü əks etdirən fotoşəkil digərləri ilə birlikdə burada nümayiş etdirilir. Siz də qeyd etdiniz ki, ilk "Dostluq" ordeni Çingiz Aytmatova təqdim olunub. Həmin vaxt bu orden mənim tərəfimdən, mənim təşəbbüsümlə yenicə təsis olunmuşdu. Açığını desək, düşünürdüm ki, hər halda rəqəmlərdə bir rəmzilik var, fikirləşirdim ki, bu bir nömrəli ordeni kimə təqdim edək. Sözsüz ki, ilk ağlıma gələn o oldu ki, onu Türk dünyasının hər hansı bir nümayəndəsinə verək. Sonradan sanki fikirlər ard-arda gəldi və qərar verildi. Bəlkə də bədahətən oldu, amma digər tərəfdən, bədahətən verilən bütün qərarlar sənin tərəfindən əvvəlki dövrdə dərindən düşünülmüş olur. Ona görə də bu, tamamilə şüurlu, yeganə düzgün qərar idi. O da bizim üçün xüsusi qürur mənbəyidir ki, bir nömrəli "Dostluq" ordeni Çingiz Torekuloviçə təqdim edilib. Mən bu il Bakıda onun abidəsinin açılışında çıxış etdim. Çingiz Aytmatovun heykəli mərkəzi küçələrdən birində ucaldılıb. Mən dedim ki, onun tezliklə aramızda olmayacağını güman etmirdik. Çünki o, Bakıya yaxşı əhvali-ruhiyyədə gəlmişdi, biz onunla çoxlu söhbət etdik, o, gələcək planlarından danışırdı, çox yaxşı görünürdü, mən buna ürəkdən sevindim. Amma bir neçə aydan sonra o, vəfat etdi. Əlbəttə, bu, kədər hissi doğurur, çünki o, hələ yaşaya, öz yaxınlarını sevindirə, onları qayğı və şəfqəti ilə əhatə edə, həmçinin məhz bu gün aktual olan xeyli sayda əsər yarada bilərdi. Çünki onun bu dünyadan köçdüyü vaxtdan bəri həm bizim regionumuzda, həm də dünyada çoxlu hadisələr baş verib, zənnimcə, onun sözü çox mühüm olardı, təkcə bizim regionumuz üçün deyil, həm də ümumilikdə dünya siyasəti üçün. Çünki o, yaradıcılıq fəaliyyəti ilə yanaşı, həmçinin çox nüfuzlu ictimai xadim idi.

Məni Çingiz Torekuloviçin ocağına dəvət etdiyiniz, bu mükafata layiq gördüyünüz üçün sizə bir daha təşəkkür etmək istəyirəm. Sizi yaxın vaxtlarda Bakıya dəvət etmək, ailənizlə, Çingiz Torekuloviçin balaca davamçıları ilə birlikdə qonağımız olmağınızı istəyirəm. Onun abidəsini ziyarət etsinlər və onu tanıyanlarla, sevənlərlə ünsiyyətdə olsunlar. Bir daha təşəkkür edirəm.

**Eldar Aytmatov**: Çox sağ olun.

* * *

Daha sonra Prezident İlham Əliyev və Çingiz Aytmatovun ailə üzvləri birgə çay süfrəsi arxasında söhbət ediblər.

Sonda qarşılıqlı xatirə hədiyyələri təqdim olunub.

**(Ardı 5-ci səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana səfəri



(Əvvəli 4-cü səhifədə)

Noyabrın 5-də Qırğızıstanın paytaxtı Bişkekdə Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının qeyri-rəsmi şam yeməyi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

Görüşdə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bir daha qeyd olunub.

Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşünün türk dövlətləri arasında əməkdaşlığın güclənməsi işinə xidmət etdiyi vurğulanıb.

Söhbət zamanı Azərbaycanda keçiriləcək COP29-un əhəmiyyəti bir daha qeyd edilib.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirilib, ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkekdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmək üçün Prezident Administrasiyasına gəlib.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Daha sonra Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının iclası keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Sadır Nurqojoyeviç.

Hörmətli dövlət və hökumət başçıları.

İlk növbədə, qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğız Respublikasının Prezidenti Sadır Nurqojoyeviç Japarova təşəkkür edirəm.

Bu, mənim son iki ildə Qırğız Respublikasına üçüncü səfərimdir. Hər səfərimdə Sadır Nurqojoyeviçin rəhbərliyi ilə ölkədə inkişafın şahidi oluram. Əldə edilmiş bütün uğurlar münasibətilə qardaş Qırğızıstanı təbrik edirəm.

Həmçinin Türk Dövlətləri Təşkilatına uğurlu sədrliyinə görə Qazaxıstanı təbrik edirəm.

Bu il Türk Dövlətləri Təşkilatının əsasını qoymuş Naxçıvan Sazişinin 15-ci ildönümüdür. Təşkilatımız bu dövr ərzində uğurlu inkişaf yolu keçib. İyul ayında Şuşa şəhərində keçirilmiş Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanmış Qarabağ Bəyannaməsi əməkdaşlığın daha da dərinləşməsinə töhfə verir.

Azərbaycan Türk Dövlətləri Təşkilatının möhkəmlənməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək.

Türk Dövlətləri Təşkilatının mövcud büdcəsi qarşıya qoyduğumuz hədəflərin həyata keçirilməsi üçün yetərli deyildir. Ümid edirəm ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatının Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi təşkilatın potensialının daha da güclənməsinə töhfə verəcək.

Hazırda dünyada artan təhlükələri nəzərə alaraq müdafiə, təhlükəsizlik və müdafiə sənayesi sahələrində əməkdaşlığımız böyük əhəmiyyət daşıyır. Son dövrlər hüquq-mühafizə və təhlükəsizlik orqanlarımız arasında əməkdaşlıq daha da genişlənib.

Ölkələrimizin silahlı qüvvələrinin iştirakı ilə hərbi təlimlər keçirilir. Hərbi təhsil müəssisələrimizdə qardaş ölkələrin müdavimlərinin təhsil alması qarşılıqlı etimadın və dostluğun göstəricisidir.




Son dövrlər Şərq-Qərb nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisi üzrə daşımalar daha da artıb. Mərkəzi Asiya ölkələri ilə Türkiyəni Azərbaycan üzərindən bağlayan bu dəhlizin ötürmə qabiliyyətinin yüksəldilməsi üçün Azərbaycan öz sərmayələrini artırır.

2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2024-cü ilin yanvar-sentyabr aylarında üzv və müşahidəçi dövlətlər ilə tranzit daşımalarının həcmində 15 faizə yaxın artım müşahidə edilir.

Hazırda Orta Dəhlizin rəqəmsallaşdırılması və ticarətin asanlaşdırılması istiqamətində bir sıra layihələr icra olunur. Bu layihələr logistika səmərəliliyinin artırılmasına və xərclərin azaldılmasına təsir edəcək.



Ötən ilin sentyabr ayında Azərbaycan öz suverenliyini tam bərpa etdi. Ermənistan 30 il davam edən işğal dövründə bu ərazilərdə 9 şəhərimizi və yüzlərlə kəndimizi tamamilə məhv edib. İşğaldan azad olunan ərazilərdə indi genişmiqyaslı yenidənqurma və bərpa layihələri həyata keçirilir, eyni zamanda, Böyük Qayıdış Proqramının icrası çərçivəsində keçmiş məcburi köçkünlər öz doğma yurdlarına geri dönürlər.

Fürsətdən istifadə edərək, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstanın dövlət və hökumət başçılarına azad olunmuş ərazilərdə qardaşlıq hədiyyəsi olan məktəbə və yaradıcılıq mərkəzinə, eləcə də tikiləcək məktəblərə görə bir daha təşəkkürümü bildirmək istərdim.

Azərbaycan yaxın günlərdə COP29 iqlim konfransına ev sahibliyi edəcəkdir. Keçən ilin dekabrında 200-ə yaxın ölkə Azərbaycanın namizədliyini yekdilliklə dəstəkləmişdir. Bu, beynəlxalq aləmin ölkəmizə böyük hörmətinin və dəstəyinin təzahürüdür.

Əminəm ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələr COP29 konfransının işində fəal iştirak edəcəklər.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Sonra sənədlər imzalanıb.

* * *

Noyabrın 6-da Bişkekdə Macarıstanın Baş naziri Viktor Orbanın Türk dünyasının Ali Ordeni ilə təltif olunması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri noyabrın 6-da başa çatıb.

Bişkek şəhərinin "Manas 2" Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qırğızıstan Nazirlər Kabinetinin sədri - Prezident Administrasiyasının rəhbəri Akılbek Japarov və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

## "Sualtı hücum xüsusi təyinatlı kursu"nun buraxılış mərasimi keçirilib



Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində "Sualtı hücum xüsusi təyinatlı kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə hərbi hissənin ərazisində şəhidlərin xatirəsinə ucaldılan abidə önünə gül dəstələri düzülərək hörmət və ehtiram nümayiş etdirilib.

Buraxılış mərasimində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan və Qazaxıstan respublikalarının Dövlət himnləri səsləndirilib.

Tədbirdə iştirak edən birinci dərəcəli kapitan Teymur Mürşüdov kursu müvəffəqiyyətlə bitirənləri təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Sonra Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Alim Bayel çıxış edərək peşəkar təlimatçıların da cəlb olunması ilə keçirilən kursun yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirib.



Kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə emblem vurulduqdan sonra kursantlara sertifikatlar təqdim olunub.

Kursda fərqlənən bir qrup hərbi qulluqçu və təlimatçı fəxri fərman, döş nişanları və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

# Zəfər günündə Ulu Öndərin və şəhidlərimizin məzarları ziyarət olunub

*Noyabrın 7-də Müdafiə Nazirliyinin rəhbər heyəti və Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu Zəfər günü münasibəti ilə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin məzarlarını ziyarət edib.*



Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Fəxri xiyabanda Ümummilli Liderin abidəsi önünə qızılgül dəstələri düzülərək xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdirilib.

Müdafiə Nazirliyinin rəhbərliyi görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib, üzərinə qızılgüllər düzüb, xatirəsini hörmətlə anıb.

Sonra Şəhidlər xiyabanı ziyarət olunaraq torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin məzarlarına və "Əbədi məşəl" abidəsinin önünə tər gül dəstələri qoyulub.

Daha sonra Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyət İkinci Şəhidlər xiyabanına gəlib.

Burada hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Vətənimizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin məzarları üzərinə gül dəstələri düzülərək ruhları dərin hörmət və ehtiramla anılıb.

Şəhid ailələri və yaxınları ilə görüşərək çay süfrəsi arxasında səmimi söhbət aparan müdafiə naziri general-polkovnik Zakir Həsənov onların qayğıları ilə maraqlanıb.

Şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.







# Müdafiə Nazirliyinin rəhbərliyi hərbi polis bölməsində olub







Zəfər Günü ərəfəsində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbər heyəti hərbi polis bölmələrindən birinin daimi dislokasiya məntəqəsini ziyarət edib.

Nazirliyin rəhbərliyi burada xidmət edən hərbi qulluqçularla görüşüb, onların xidməti-döyüş fəaliyyəti və məişət şəraiti ilə tanış olub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov xatirə kitabına ürək sözlərini yazıb.

Müdafiə Nazirliyi xəbər verir ki, daha sonra nazirliyin rəhbər heyəti bölmənin nümayiş məşğələsini izləyib.



Hərbi qulluqçularla görüşən nazirliyin rəhbərliyi onların qayğıları ilə maraqlanıb. General-polkovnik Zakir Həsənov şəxsi heyəti qarşıdan gələn 8 Noyabr - Zəfər Günü ilə əlaqədar təbrik edib, onlara xidmətlərində uğurlar arzulayıb.

Nazirliyin rəhbər heyəti hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunu təltif edib.

Müdafiə naziri hərbi qulluqçuların döyüş hazırlığının, eləcə də maddi-texniki təminatı və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində aidiyyəti şəxslər qarşısında müvafiq tapşırıqlar qoyub.

Sonda hərbi hissənin ərazisində xatirə ağacları əkilib.



## HDQ-də taktiki təlim keçirilib

2024-cü ilin hazırlıq planına əsasən, Hərbi Dəniz Qüvvələrində (HDQ) taktiki təlim keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, üç mərhələ üzrə həyata keçirilmiş təlimdə HDQ-nin döyüş gəmiləri dəstəsi və dəniz piyadaları iştirak edib.

Təlim zamanı döyüş fəaliyyətinin təşkili və qüvvələrin döyüşdə idarə olunması üzrə komandirlərin və qərargahların bacarıqlarının təkmilləşdirilməsi, eyni zamanda, gəmilərin tək-tək və taktiki qrup tərkibində döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlıqları yoxlanılıb.



Qeyd edək ki, təlimin keçirilməsində əsas məqsəd ölkəmizə qarşı yönəlmiş təhdidlərin qarşısının alınması, Xəzər dənizinin Azərbaycana məxsus sektorunda enerji infrastrukturunun mühafizəsi və müdafiəsi üzrə döyüş əməliyyatlarının aparılması və müxtəlif şəraitdə gəmi taktiki qruplarının müvafiq tapşırıqların icrası zamanı xüsusi təyinatlı qruplar ilə birgə fəaliyyətlərin yerinə yetirilməsidir.

# 8 Noyabr - Zəfər Günü Azərbaycan Ordusunda təntənəli şəkildə qeyd edilib







Cari ilin hazırlıq planına əsasən, 8 Noyabr - Zəfər Gününün dördüncü ildönümü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, hərbi qulluqçular Şəhidlər xiyabanlarını ziyarət edərək Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı naminə canından keçmiş Vətən övladlarının məzarları üzərinə güllər düzüb, xatirələrini hörmət və ehtiramla yad ediblər.

Mərasimlərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin suverenliyi uğrunda şəhid olan vətəndaşlarımızın xatirələrinə bir dəqiqəlik sükut elan edilib, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Silsilə tədbirlərdə Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı tarixi qələbənin əhəmiyyətindən, qələbənin qazanılmasında xalqımızın rolundan, döyüşçülərimizin göstərdikləri igidlik nümunələrindən danışılıb, şəhidlərimizin xatirəsinin heç vaxt unudulmayacağı əminliklə vurğulanıb.

Hərbi qulluqçularımızın təşəbbüsünə uyğun olaraq, müxtəlif bölgələrdə şəhidlərimizin xatirələrinə ağaclar əkilib, abadlıq işləri aparılıb.

Tədbirlər çərçivəsində şəxsi heyətə qələbə əzminin və döyüş ruhunun təbliği, Vətənə və dövlətə sədaqət amillərinin aşılanması məqsədilə dəyirmi masalar keçirilib, döyüş əməliyyatlarında qələbəmizlə bağlı geniş söhbətlər aparılıb.

Vətən müharibəsinə həsr olunmuş sənədli filmlər və videoçarxların nümayişi, həmçinin hərbi orkestrlərin, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, yerli mədəniyyət və incəsənət nümayəndələrinin təqdim etdikləri ədəbi-bədii kompozisiyalar, mədəni-kütləvi və digər tədbirlər şəxsi heyət tərəfindən maraqla qarşılanıb.

Keçirilən tədbirlərdə əsas diqqət şəxsi heyətin estetik zövqlərinin inkişafına və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsinə yönəldilmişdir.

Sonda xidmətdə fərqlənən, yüksək nizam-intizamı ilə seçilən bir qrup hərbi qulluqçu fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

# Zəfər Günü münasibətilə hərbi qulluqçuların yürüşləri təşkil olunub







8 Noyabr - Zəfər Günü ilə əlaqədar paytaxtın müxtəlif küçə və prospektlərində, eləcə də Gəncə, Şuşa, Xankəndi, Laçın şəhərlərində müəyyən edilən marşrutlar üzrə hərbi orkestrlərin müşayiəti ilə hərbi qulluqçuların yürüşləri təşkil olunub, tədbirlər keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.




Yürüşlərdə hərbi orkestrlərin ifasında hərbi vətənpərvərlik mahnıları, eləcə də marşlar səsləndirilib.

Hərbi yürüşlər, hərbi orkestrlərin nümunəvi çıxışları şəhər sakinləri və qonaqlar tərəfindən böyük maraqla qarşılanıb, yüksək əhval-ruhiyyə yaradıb.

Keçirilən tədbirlərdə qeyd edilib ki, Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi Ermənistanın məğlubiyyətini bildirən kapitulyasiya aktına imza atması ilə nəticələnib. Bildirilib ki, 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunması ilə nəticələnən bu Böyük Qələbə ölkəmizin ərazi bütövlüyünü təmin edib. 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağ iqtisadi rayonunda həyata keçirilən antiterror əməliyyatı nəticəsində isə Azərbaycanın dövlət suverenliyini tam bərpa olunub.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda andiçmə mərasimləri keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına uyğun olaraq, noyabrın 8-də Azərbaycan Ordusunda gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, hərbi orkestrin müşayiəti ilə döyüş bayrağının təntənəli surətdə sıra meydanına gətirilməsindən sonra tədbirlər açıq elan olunub.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Gənc əsgərlər təntənəli surətdə Hərbi Andı qəbul edərək Vətənə sadiq olacaqlarına söz veriblər.

Tədbirlərdə Müdafiə Nazirliyinin nümayəndələri və hərbi hissələrin komandir heyəti çıxış edərək andiçmə mərasiminin 8 Noyabr - Zəfər Gününə təsadüf etməsini xüsusi vurğulayaraq, döyüş əməliyyatlarında qazandığımız qələbələrin tarixi əhəmiyyətindən danışıblar. Vətənimizin müdafiəsində ayıq-sayıq olmağı, qarşıya qoyulmuş tapşırıqları vicdanla yerinə yetirməyi tövsiyə ediblər.



Gənc əsgərlər öz növbəsində Vətənə, dövlətə və Ali Baş Komandana, Hərbi Anda sadiq olacaqlarına, nümunəvi, nizam-intizamlı xidmət edəcəklərinə, silah və texnikanın sirlərini dərindən öyrənəcəklərinə, döyüş qabiliyyətlərini daim artıracaqlarına, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirəcəklərinə söz veriblər.

Hərbi qulluqçular təntənəli marşla tribunaların önündən keçiblər.

Andiçmə mərasimləri zamanı, həmçinin 8 Noyabr - Zəfər Günü münasibətilə şəxsi heyətin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə hərbi vətənpərvərlik mövzusunda mədəni-kütləvi tədbirlər keçirilib.

# Zəfər qazandığımız torpaqlarımızda Dövlət Bayrağımız əzəmətlə dalğalanır



**Azərbaycan Respublikasının Prezidenti,**
**Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev:**

***Dövlətin nə qədər gücü olsa, nə qədər silahı olsa, nə qədər düzgün hərbi əməliyyatlar planlaşdırılsa da, Qələbəni əldə edən əsgərdir, zabitdir. O gedir, o, sinəsini qabağa verir, o, ölümə gedir və Bayrağı da qaldıran odur. Onların qəhrəmanlığı bizim yaddaşımızdan heç vaxt silinməməlidir və silinməyəcək.***

*Tarixi Zəfər salnaməsinin yazıldığı 44 günlük Vətən müharibəsindən artıq dörd il ötür. Bu tarixi gün ilə yanaşı, xalqımız 9 Noyabr - Dövlət Bayrağı Gününün sevincini də təntənə ilə yaşayır. Hər iki əlamətdar gün ölkəmizin hər yerində olduğu kimi, Azərbaycan Ordusunda da böyük coşqu ilə qeyd olunur. İşğaldan azad olunmuş ərazilərimizdə Vətənimizi qoruyan, qəhrəmanlıq salnaməsini yazan igid oğullarımızın davamçıları xalqımızı hər iki bayram münasibətilə təbrik etdilər. Əminliklə bildirdilər ki, azad edilmiş ərazilərimizdə qürurla xidmət edir, Vətənimizin keşiyində inamla dayanır, müstəqilliyimizin və dövlətçiliyimizin rəmzi olan üçrəngli bayrağımızın daim əzəmətlə dalğalanması üçün döyüş növbətçiliyini yüksək səviyyədə aparırlar. Zəfər Günü ərəfəsində qəzetimizin əməkdaşları Vətən müdafiəçilərinin fikirlərini qələmə aldılar.*





**Əsgər Elyar Əliyev:** Biz şanslı gənclərik. Şanslıyıq ona görə ki, güclü dövlətimiz, rəşadətli ordumuz, qədirbilən xalqımız var. Xidmətimizi də qürurla, sevgi ilə yerinə yetiririk. Vətən də, onu qorumaq da müqəddəsdir. Yüksək əhval-ruhiyyədə bu müqəddəs vəzifələrimizin öhdəsindən uğurla gəlirik. Vətənimizin keşiyində qətiyyətlə dayanmışıq. Səmimi və mehriban kollektivimiz var. Bizi, ən güclü silahdan daha təsirli olan Vətən sevgisi, vətənpərvərlik və müqəddəs amal birləşdirir. Bu ülvi hisslər döyüş hazırlığımızla tamamlanır və ərazi bütövlüyümüzü inamla qoruduğumuz kimi, Ali Baş Komandanın istənilən döyüş əmrini də uğurla yerinə yetirməyə hər an hazırıq. İki möhtəşəm bayramın abu-havasını yaşayırıq. Həm 8 Noyabr - Zəfər Günü, həm də 9 Noyabr - Dövlət Bayrağı Günü hər bir azərbaycanlı üçün unudulmaz tarixi günlərdəndir. Hər iki bayram münasibətilə Ali Baş Komandanımız başda olmaqla bütün xalqımızı, ailəmizi və digər bölmələrdə xidmət edən silahdaşlarımızı təbrik edirəm. Bu bayramları işğaldan azad edilmiş ərazilərimizdə qeyd etmək daha möhtəşəmdir. Bu xoşbəxt və qürurlu günləri bizə nəsib edən şəhidlərimizə Allahdan rəhmət diləyirik, onların əziz xatirəsi daim bizimlə yaşayır. Onların canı, qanı bahasına qazanılan müstəqilliyimiz, ərazi bütövlüyümüz və suverenliyimiz bu gün bizə əmanətdir. Biz də hərbçilərimizin, qəhrəman şəhidlərimizin xidmət yolunu, igidliyini, mətinliyini özümüzə nümunə bilir, xalqımızın və dövlətimizin güvəncinə layiq olmağa çalışırıq. Bayramlarımız mübarək, əziz xalqımız.

**Əsgər Əli Musayev:** Hər iki bayram bizim üçün müqəddəsdir və böyük tarixi əhəmiyyətə malikdir. Çünki bayrağımız dövlətimizin və müstəqilliyimizin rəmzidir. Bütün əlamətdar günlərdə, beynəlxalq tədbirlərdə və yarışlarda dövlətimizin uğurlarının simvolu kimi bayrağımız dalğalandırılır. Bayrağımız tarix boyu azadlığımız, ərazi bütövlüyümüz uğrunda haqq savaşına gedənlərin başlarının üstündə olub. Şəhid olanların nəşi də bayrağa bükülərək ailəsinə təhvil verilir. Şəhid atası bayrağımızı öpüb, alnına qoyaraq Vətən sağ olsun deyir. Bu gün şanlı bayrağımız tarixi Zəfərimizin simvolu kimi Qarabağımızın hər yerində dalğalanır. Üçrəngli bayrağımızın Qarabağımızda dalğalanması - bu müqəddəs amal uğrunda illərdir davam edən haqq savaşımızın Böyük Qələbə ilə tamamlanmasının məhz Dövlət Bayrağı Günü ərəfəsinə təsadüf etməsi Vətənin, bayrağın, əzəli torpaqlarımız uğrunda döyüşməyin müqəddəslik olduğunun göstəricisidir. Vətənimiz də, bayrağımız da uğrunda can verənlərin bizə əmanətidir. Bu mirası biz də canımız bahasına qoruyub, gələcək nəsillərə ötürməliyik. Hər iki bayram münasibətilə başda şəhidlərimizin ailələri olmaqla, sağlamlığını itirən silahdaşlarımızı, 44 günlük Vətən müharibəsi və digər uğurlu döyüş əməliyyatlarında iştirak edən hər kəsi və bütün xalqımızı təbrik edirəm. Əmin olun ki, biz də qəhrəmanlıq salnaməsi yazanların davamçılarıyıq, Vətənimizi canımız bahasına qorumağa hazırıq.



**Əsgər Rəhman Əlibəyov:** "Vətənin keşiyəndə dayanan əsgər kimi qürurluyam" sözləri bizim şüarımızdır. Bu ifadə hər birimizin ruhuna hopub, xidmətimizin qayəsinə çevrilib. Ümumiyyətlə, hərbi forma geyinmək, Qalib Azərbaycan Ordusunun əsgəri adını daşımaq qürurludur. Döyüş növbətçiliyi aparan bölmədə xidmət etmək, torpaqlarımızın keşiyində dayanmaq isə ikiqat qürurludur. Biz belə yüksək döyüş ruhunda xidmətimizi uğurla davam etdiririk. Bütün təminatlarımız yüksək səviyyədə təşkil olunur. Rəhbərliyin, komandirlərimizin diqqət və qayğısını hər an hiss edirik.

Bayrağımızın müqəddəsliyindən və Zəfərimizin tarixi mahiyyətindən saatlarla danışmaq olar. Hər iki bayram bir-birilə sıx bağlıdır. İkinci Qarabağ müharibəsi başlayanda məktəbli idim. Özümüz məktəbdə olsaq da, ürəyimiz cəbhədə döyüşənlərin yanında idi. Əlimizdə bayraqlar küçələrdə, parklarda ordumuzun qələbə xəbərlərini böyük coşqu ilə qeyd edirdik. Həm də şəhidlərimizin dəfn mərasimlərində iştirak edirdik. Bir sözlə, həm sevincli, həm də kədərli anlarda bayrağımız həmişə yanımızda olurdu. Həmin günləri heç zaman unutmayacağıq. Artıq o günlərdən 4 il ötüb və bu gün işğaldan azad olunmuş bütün ərazilərimizdə üçrəngli Dövlət Bayrağımız vüqarla dalğalanır. Bu, hər birimiz üçün qürur mənbəyidir. Bu tarixi günləri əzəli torpaqlarımızda qeyd etməyin sevinci də başqadır. Hər iki bayram münasibətilə xalqımızı təbrik edirəm. Qalib ordunun qürurlu və rəşadətli əsgəri kimi Vətənimizin keşiyindəyik. Yaşasın, tarixi Zəfərlərimizin memarı Müzəffər Ali Baş Komandan. Azərbaycan Bayrağı hər zaman yüksəklərdə dalğalanacaq!

**Əsgər Kənan Abışov:** Xalq şairimiz Bəxtiyar Vahabzadənin "Bayraq mənliyimdir, bayraq kimliyim, Bayraq - öz yurduma öz hakimliyim" misralarını xatırlayıram. Orta məktəbdə ən sevdiyim şeirlərdən idi. Şair digər misrada qeyd edir ki, tarix boyu zəfər gülləri bayraq işığında bitir. Bu misralardakı reallığı 4 ildir xalqımız bayram kimi qeyd edir. 44 günlük Vətən müharibəsində Böyük Qələbə qazandıq və bayrağımızın kölgəsində Vətən olan torpaqlarımızı işğaldan azad etdik. Bu müqəddəs yolda, haqq savaşımızda şəhid olan soydaşlarımızın ruhları qarşısında baş əyirik, Allahdan onlara rəhmət, sağlamlığını itirən döyüşçülərimizə şəfa diləyirik. Onlar öz igidlikləri, mübarizələri, rəşadətləri ilə biz gənclərə əsrlər boyu nümunə olacaq salnamə yazdılar. Biz fəxr edirik ki, belə qəhrəman xalqın nümayəndələriyik. Fəxr edirik ki, Azərbaycanlıyıq. Əziz xalqımız, cənab Prezidentimiz və şəhid ailələri, bayramınız mübarək. Zəfərin mübarək Azərbaycan, biz sənin keşiyində mətin dayanmışıq, lazım gələrsə canımızı belə verməyə hazırıq.



**Əsgər Rahim Seyfullayev:** Vətənimiz və bayrağımız hər birimiz üçün müqəddəsdir. Həm Vətənimiz, həm də bayrağımız uğrunda canımızı qurban verməyə hazırıq. Xidmət etdiyimiz bölmədə ikinci Qarabağ müharibəsinin və sonrakı əməliyyatların iştirakçıları var. Asudə vaxtlarda həmin günlərdən danışır, xatirələrini bölüşürlər. Döyüşlərin canlı şahidi olan komandirlərimizdən silahdaşlarımızın döyüş meydanında göstərdikləri igidliyi, şücaəti, fədakarlığı eşitdikcə bir daha azərbaycanlı olmağımızla qürur duyuruq. Onlarla bir sıralarda xidmət etmək, döyüş təcrübələrindən bəhrələnmək bizim üçün şərəfdir. Bu gün Zəfər Günü və Dövlət Bayrağı Günü bayramlarını qələbə ruhunda, təntənə ilə qeyd edirik. Hərbi xidmətə gəlməzdən əvvəl Zəfər Gününü qeyd etmişəm, lakin bu dəfəki tam fərqlidir. Bu bayramı hərbi hissədə, bu tarixi Zəfəri qazananlarla, həmin günlərin sevincini, ağrı-acısını döyüş meydanlarında yaşayanlarla bir arada qeyd etmək fərqli duyğular yaşadır. Onların hər biri biz gənclər üçün nümunədir. Həm xidmətdə, həm də xidmətdən sonrakı həyatımızda. Artıq 4 ildir ki, bütün bayramları qələbə ruhunda qeyd edirik. Cənab Ali Baş Komandanın Azərbaycan Ordusuna göstərdiyi yüksək diqqət və qayğı bizi daha da ruhlandırır. Cənab Prezidentə dərin minnətdarlığımızı bildirir, onun timsalında bütün xalqımızı əlamətdar bayramlar münasibətilə təbrik edirik. 44 günlük Vətən müharibəsində iştirak edən bütün hərbi qulluqçularımızı təbrik edir, onlara deyirik ki, biz vətənpərvərliyi, igidliyi və fədakarlığı sizdən öyrənirik.

**Kapitan**
**Mahmud MÖHBALIYEV,**
**baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Elçin İMANOV

Lisenziya № 361
Sifariş № 666
Nüsxə 4650